*Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının*
***2004-cü il 30 mart tarixli 129/4 saylı qərarı***
***(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının***
***2010-cu il 12 oktyabr tarixli 212/9 saylı***
***qərarı ilə edilmiş əlavə və dəyişikliklərlə)***

# SƏRBƏST AUDİTORLAR VƏ AUDİTOR TƏŞKİLATLARI TƏRƏFİNDƏN AUDİT APARILMASINA ASSİSTENTLƏRİN (AUDİTOR KÖMƏKÇİLƏRİNİN) CƏLB EDİLMƏSİ BARƏDƏ

Auditor xidməti bazarında haqsız rəqabət hallarına yol verməmək, auditor yoxlamalarının beynəlxalq audit standartlarının tələblərinə riayət olunmaqla aparılmasını təmin etmək məqsədilə, auditorlar tərəfindən daxil olan təklif və tövsiyələri nəzərə alaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən sərbəst auditorlar və auditor təşkilatları tərəfindən audit aparılmasına assistentlərin (auditor köməkçilərinin) cəlb edilməsində müəyyən sistemlilik yaratmaq üçün və Auditorlar Palatasının 2004-cü il üzrə iş planının 2.2-ci bəndinin icrası ilə əlaqədar Auditorlar Palatasının Şurası **qərara alır:**

1. Sərbəst auditorlar və auditor təşkilatları tərəfindən audit aparılmasına cəlb edilən şəxslər assistent (auditor köməkçisi) qismində fəaliyyət göstərməlidir.
2. Assistent (auditor köməkçisi) qismində hər bir sərbəst auditor iki nəfər, auditor təşkilatları isə tərkibində fəaliyyət göstərən auditorların hər birinə iki nəfər cəlb edə bilər.
3. Auditorla (auditor təşkilatı ilə) assistent (auditor köməkçisi) arasında hər bir sifarişçi təsərrüfat subyekti üzrə Əmək Məcəlləsinə uyğun olaraq əmək müqaviləsi bağlanmalı, əmək müqaviləsində assistentin (auditor köməkçisinin) həmin təsərrüfat subyektində audit aparılması üzrə görəcəyi işin həcmi və bunun müqabilində ona ödəniləcək əməkhaqqının məbləği konkret əks etdirilməlidir.
4. Cəlb olunmuş assistent (auditor köməkçisi) auditorun tapşırığına əsasən ona həvalə edilmiş işləri icra edir və tapşırığın icrası ilə əlaqədar tərtib olunmuş müvafiq sənədləri imzalayır.
5. Auditin nəticəsinə görə tərtib edilmiş aktda yalnız auditorun və təsərrüfat subyekti rəhbərlərinin imzası olmalıdır.
6. Bu qərarın 3-cü maddəsində nəzərdə tutulmuş hal auditor təşkilatlarının ştatında olan assistentlərə və auditor köməkçilərinə şamil edilmir.
7. Auditor təşkilatlarına tövsiyə edilsin ki, «mütəxəssis» ştat vahidlərini beynəlxalq təcrübəyə uyğun olaraq, «assistent» və ya «auditor köməkçisi» kimi ifadə etsinlər.